AĞA MƏHƏMMƏD ŞAH QACAR

Pərixanım Soltan qızı Hüseynova
ADPU,
Ədəbiyyatın tədrisi texnologiyası
kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru
https://doi.org/10.5281/zenodo.23104089

XÜLASƏ

Məqalədə Azərbaycan ədəbiyyatında tarixi şəxsiyyət Ağa Məhəmməd şah Qacar obrazının təcəssümü məsələsi Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" və S.Vurğunun "Vaqif" pyesləri əsasında müqayisəli şəkildə təhlil olunur. Qeyd edilir ki, Ə.Haqverdiyevin pyesi N.Nərimanovun "Nadir şah" faciəsindən sonra dramaturgiyamızda yazılan ikinci tarixi faciədir. Müəllif hər iki sənətkarın bu obrazı yaradarkən tarixi mühiti, dövrün siyasi reallıqlarını dərindən araşdırdığını vurğulayır. Tədqiqatda Haqverdiyevin Qacarı həm bir-birinə zidd daxili keyfiyyətləri (qəddar hökmdar və eyni zamanda savadlı, mütaliəni sevən, parçalanmış İranı birləşdirməyə çalışan dövlət xadimi), həm də geniş tarixi coğrafiyası ilə təsvir etdiyi göstərilir. S.Vurğunda isə diqqət daha çox Qacarın Qarabağa hücumu, onun işğalçı və amansız Mahiyyətinin ifşasına yönəldilmişdir. Məqalədə hər iki dramaturqun Qacar obrazı vasitəsilə təkcə öz dövrünün deyil, ümumiyyətlə, bəşəriyyətə bəla gətirən bütün cahangirlərin və cəlladların ümumiləşdirilmiş tipini yaratdıqları nəticəsinə gəlinir.

Açar sözlər: Ağa Məhəmməd şah Qacar, Əbdürrəhim bəy Haqverdiyev, Səməd Vurğun, "Vaqif" pyesi, tarixi faciə, müqayisəli təhlil, işğalçılıq.

ABSTRACT

The article presents a comparative analysis of the image of the historical figure Agha Mohammad Shah Qajar in Azerbaijani literature, based on the plays "Agha Mohammad Shah Qajar" by A. Haqverdiyev and "Vagif" by S. Vurgun. It is highlighted that A. Haqverdiyev's play is the second historical tragedy written in Azerbaijani dramaturgy after N. Narimanov's "Nadir Shah". The author emphasizes that both writers thoroughly researched the historical context and political realities of the era while creating this character. The study demonstrates that Haqverdiyev depicts Qajar with contradictory inner traits—as a cruel ruler, yet a well-read statesman striving to unify a fragmented Iran—across a broad historical geography. In contrast, S. Vurgun focuses primarily on Qajar's invasion of Karabakh, exposing his aggressive and ruthless nature. The article concludes that through the image of Qajar, both playwrights created a generalized type of conquerors and tyrants who bring devastation to humanity across all eras.

Keywords: Agha Mohammad Shah Qajar, Abdurrahim bey Haqverdiyev, Samad Vurgun, "Vagif" play, historical tragedy, comparative analysis, aggressiveness.

İran şahı Ağa Məhəmməd şah Qacar obrazını Azərbaycan sovet ədəbiyyatında Ə.Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar" pyesindən sonra, S.Vurğun "Vaqif", aktyor

H.Abbasov “Vaqif” pyeslərində, Y.V.Çəminzəminli “İki od arasında” romanında yaradıb. Biz isə görkəmli sənətkarlar Ə.Haqverdiyevin və S.Vurğunun Ağa Məhəmməd şah Qacar obrazlarından (müqayisəli) bəhs edəcəyik.

Ə.Haqverdiyevin “Ağa Məhəmməd şah Qacar” pyesi həm Azərbaycan ədəbiyyatı, həm də Azərbaycan dramaturgiyasının faciə janrında N.Nərimanovun “Nadir şah” faciəsindən sonra yazılan ikinci tarixi faciədir. Bu mövzuda əsər yazmağın məsuliyyətini dərk edən ədib faciə janrında özündən əvvəl yazılan Avropa və rus dram əsərlərini, o cümlədən “Nadir şah”ı dərindən mütaliə edərək özünəməxsus şəkildə orijinal, uğurlu bir tarixi əsər ortaya qoyub. İran şahı Ağa Məhəmməd şah Qacarı tarixdən gələn obraz kimi yaradır, onu bədii detallarla mənfi və müsbət cəhətlərilə geniş şəkildə şərh edir. Qarşısına Ağa Məhəmməd şah Qacarın mükəmməl tarixi obrazını yaratmaq məqsədini qoyan sənətkar öncə Qacar dövrünü, mühitini, onun şəxsiyyətini dərindən tədqiq etmiş və öyrənmişdir. Onu da qeyd edək ki, problemi araşdırarkən Haqverdiyev filoloq, tarixçi alim kimi tədqiqat işi aparmışdır. S.Vurğun da həmçinin “Vaqif”i yaradarkən bu yolla getmişdir. Fərq ondadır ki, S.Vurğunu tarixi şəxsiyyət olaraq Vaqif, Ə.Haqverdiyevi isə İran şahı Qacar maraqlandırmışdır. Hər iki obraz eyni dövrün, yaşadıqları mühitin hadisələrində əsas, mənsub oladuqları dövlətin daxili və xarici siyasətində qarşı-qarşıya gələn tarixi şəxsiyyətlər olduğundan hər iki əsərdə canlandırılır.

Haqverdiyevin Qacarı tarixdən gələn obrazdır. Ə.Haqverdiyev on səkkiz il (1779-1797) hökm sürən İran tarixini, S.Vurğun isə Azərbaycan xanlığı (Qarabağ) dövrünü təsvir edir. Mövzu baxımından dövrü əks etdirən bədii lövhələrdə “Vaqif” də, “Ağa Məhəmməd şah Qacar” da drammatik ziddiyyətlərlə zəngindir.

Haqverdiyevin Qacarı Vurğunun Qacarından fərqlidir. Yalnız istilada, vəhşilikdə, qəddarlıqda, törətdikləri cinayətdə oxşardırlar və s. Ə.Haqverdiyevdə Qacarla bağlı bir-birilə əlaqəli hadisələr Mazandaranda, Tiflisdə, Xorasanda, Şuşada inkişaf edir. S.Vurğunda isə bu hadisələrdən biri – tarixi fakt kimi Qarabağa hücumu təsvir olunur. Tiflislə bağlı hadisələr isə onun qəddar simasının ifşasında pyesin üçüncü şəklində, beşinci pərdədə göstərilir.

Əsir düşmüş gürcüləri “qladiatorlar kimi” vuruşdurur.

Qacar: Soysun dərinizi dırnaqlarınız,

Görünsün gözümə qıpqırmızı ət...

Qoy alsın ürəyim bir yeni qüvvət.

Gürcülərin qardaş olduqlarını biləndə isə vəhşi ehtirası daha da alovlanır. “Necə? Qardaşsınız? Vəzir, bax! Bu oyun doğrudan ləzzət olacaq!” [6, s.74-75].

“Ağa Məhəmməd şah Qacar”da iki bir-birinə zidd Qacarı görürük. Bir tərəfdə əlindən qılıncı düşməyən ikiüzlü, hiyləgər, vəhşiliklərindən, cinayətlərindən xüsusi zövq alan nəşəli, insan qanına susayan, zalım hökmdar Qacar. Digər tərəfdə isə əlindən kitab düşməyən əqidəli, işğal olunmuş İran torpaqlarını geri qaytarmaq, parçalanmış İranı bütövləşdirmək, vahid İran dövləti qurmaq niyyəti ilə çırpınan, bu yolda yorulmaz, ehtiraslı, vətənpərvər, siyasətcil, zəkalı, alim-filosof hökmdar Qacar.

Ağa Məhəmməd şah Qacar kimdir? Hələ kiçik yaşlarından düşmən əsirliyində olarkən mütaliəylə məşğul olan, dövlət işlərinə maraq göstərən, İranın gələcəyini düşünən, taxta çıxdıqdan sonra İranın keçmiş şahlarını, sərkərdələrini hərtərəfli araşdıran, zəif və güclü tərəflərini öyrənən, onlardan bu və ya digər məsələlərdə, dövlət işlərində, müharibələrdən nəticə çıxaran bacarıqlı sərkərdə, dövlət işlərini yüksək səviyyədə bilən, xarici və daxili siyasətcil şah.

Ə.Haqverdiyev Qacar kiçik yaşlarında olarkən onun yaşadığı və şahidi olduğu vacib hadisələri səhnələşdirmir. Məsələn: atası Məhəmməd Hüseyn xanın gözləri qarşısında öldürülməsi, həbs olunması, Nadir şahın qardaşı oğlu Ədl şah tərəfindən ömürlük "faciə"yə məruz qalması, İran tarixindəki xəyanətlər və s. bu kimi tarixi hadisələr əsərin giriş hissəsində Şirazlıların söhbətindən oxucuya məlum olur. Bu da şübhəsiz ki, ədibin bütün diqqətini Qacarın parçalanmış İrandan vahid İran dövləti yaratmaq amalı uğrunda mübarizəsinə, daxili və xarici siyasətinə yönəltməsilə bağlı olmuşdur. Bu mənada "Kim güclüdür? Onu yolundan götürmək!" – Qacarın böyük siyasətinə çevrilmişdir.

Vaxtilə onu qardaşı Mürtəzaqulu xanın əsirliyindən qurtarıb taxta gətirən, eyni məqsəd uğrunda onunla birgə döyüşən Cəfərqulu xanı güclü görür, hiylə işlədərək onu yolundan götürür. Ondan əvvəl eyni hiylə ilə Əli xan Əfşarın gözlərini çıxartdırır. Hər ikisini hakimiyyətinə ən güclü düşmən bilir – "Mən gecələr yuxu yata bilmirəm... İranın gələcək düşmənlərini deyirəm ki, gərək onların hamısı tərk olsun ki, öləndə xətircəm ölüm. O düşmənlərin biri Əli xandır və o birisi də..." (Cəfərqulu xanı nəzərdə tutur) [1, s.170-172].

Qacarın özü də Cəfərqulu xanın sayəsində İran səltənətinə sahib olduğunu etiraf edir: "Məni fəlakətdən qurtaran, məni İran təxti-səltənətinə əyləşdirən qardaşımı varisimin ayağının altında qurban kəsirəm ki, onun səltənəti salamat olsun və gələcəkdə İran parçalanmasın" [1, s.174]. Varis kimdir? Təbii ki, o, Qacarların İran səltənətinin tək varisi olaraq özünü nəzərdə tutur və İranın nicatını mənində görür. Ona görə də Abbas bəy və Səfərəli bəy tərəfindən qətl olunanda "Ey xanəxərab, İranra viran kərdi!" – "Ey evi dağılmış, İranı viran qoydun" – deyir [1, s.197].

Cəfərqulu xan üçün ağlasa da sonradan peşman da olmur. Etdiyi rəhmsizliyini, qəddarlığını, vəhşiliyini padşahlığının üstünə atır: "Nə çətin ömürdür padşahlıq?" – deyərək, guya padşah olmasından şikayətlənir. Sanki padşah olmasaydı, bütün bunlar da olmazdı. Özünü təmizə çıxarır.

Ümumiyyətlə, Qacar kimin qətlinə fərman verirdisə, guya İranın gələcəyi naminə edirdi. Əslində isə öz taxt-tacını qorxulu bildiyi "düşmənlərindən" təmizləyir, qoruyur. Bunu biz təkrar-təkrar müxtəlif səhnələrdə ayrı-ayrı formalarda öz dilindən də eşidirik.

Mərhum görkəmli ədəbiyyatşünas tənqidçi Məmməd Arif Qacarın vəhşiliyini hakimiyyət hərisliyi ilə əlaqələndirir. "İntəhasız bir hakimiyyət ehtirası Ağa Məhəmməd şahda elə dəhşətli xəstəlik halı almışdır ki, o hər kəsdən şübhələnir, ən yaxın adamları onun gözünə qorxunc düşmən kimi görünürlər, bu ehtirasın gücü ilə o, qarşıya çıxan maneələri aradan qaldırmaq üçün qanlı qılıncını işə salır. Və etdiyi cinayətlərdən yorulmuş kimi, "nə çətin ömürdür, padşahlıq! " – deyə şikayətlənir " [2, s.218-219].

"Keçmişi xatırlamaq və xatırlatmaq kinə yol açır, heç vaxt münasibətdə təmizliyi və sadiqliyi gözləməz." Bu da Ağa Məhəmməd şahın daxili və xarici siyasətlərindən biri idi. Hətta hakimiyyətə gəlməzdən öncə yaxınlarını, sərkərdələrini, qoşunlarını ətrafına yığıb hər kəslə ədavətə son qoyduğuna onları inandıraraq nüfuzunu artırır. Bu siyasətin əsasında hiylə yatırdı. Cəfərqulu xan da bu hiylənin qurbanı olur. Belə ki, Qacar fəthində İsfəhanı Cəfərqulu xana vəd versə də onu Mazandarana göndərir. Sevimli qardaşınadan incik düşən Cəfərqulu xan uzun müddət səssiz qalır. Bu sükunətin səbəbini Qacar bildiyindən hiylə quraraq analığının vasitəsilə (Cəfərqulu xanın anası) onu yanına çağırır. Qəsdən söhbətə giley-güzarla başlayır ki, görsün "sevimli" qardaşı o hadisəni unudubmu?! Qacarın hiyləsindən xəbərsiz olan Cəfərqulu xan da giley-güzara giley-güzarla cavab verir. Hər iki qardaşın arasındakı giley-güzar, um-küsü sonda Cəfərqulu xanın faciəsi ilə tamamlanır. Bu yolla taxtını "qorxulu düşmənindən" təmizləyərək

rahat nəfəs alır: “İndi deyə bilərəm ki, Qacar nəsli həmişəlik İranda salamat padşahlıq edəcək” [1, s.174].

Mərhum ədəbiyyatşünas alim Kamran Məmmədov Qacarın qəddarlığını kiçik yaşlarından şahidi olduğu fəlakətlərlə, üzləşdiyi hadisələrlə – “atasının qəlbinə sancılan xəncərin qanı onun gözlərini qızartmış, Ədil şahın əmrilə çəkdiyi iztirabdan əbədi olaraq saralmış, “dünya ləzzətindən məhrum olma”sı ilə əlaqələndirir. Lakin bütün bunlar Qacarın qəddar, istilaçı, vəhşi ehtiraslı olmasında əsas deyil. Tarixdən ədəbiyyata transfer olunan, ondan da zülmkar, vəhşi qatil, cinayətkar cahangirlər obrazı var. Onlardamı Qacar kimi ömürlük şikəstliyə məruz qalmışdılar! Ə.Haqverdiyev də, S.Vurğun da Qacar obrazını yaradarkən onun bu xüsusiyyətlərini ömürlük şikəstliyinin əsas qaynağı kimi təsvir edir. Əsərdə bunu təsdiqləyən bədii detallar da var. Qacar sadəcə şahlıq xarakterini özündə səciyyələndirən hökmdar obrazıdır. Bu fikri Qacar da təsdiqləyir: “Nə çətin ömürdür, padşahlıq?” Guya onu cinayətə sövq edən şah olmasıdır və buna məcburdur.

Bəxtiyar Vahabzadənin sözləri isə desək, “Qacarların dərdi gözləri torpaqdan doymayan bütün cahangirlərin dərdidir” [7, s.63]

S.Vurğunun da, Ə.Haqverdiyevin də Qacarı bu cahangirlərin tipikləşdirilmiş obrazıdır. Qacarın nitqi ilə sənətkarlar onları ifşa edir:

Mən Qacar nəsliyəm, şahlar şahıyam
Mən də yer üzünün bir Allahıyam.
Gərək biz qoymayaq daşı daş üstə,
Atın, yığın-yığın leşi baş üstə!
Dünya tanımamış hələ adımı
Gərək qan altında qalsın bu dağlar,
Bağlansın qapılar, sönsün ocaqlar
Üzsün qan içində gəlinlər, qızlar.
Yerdə göyərçinlər, göydə ulduzlar
Könüllər ayrılsın sirdaşlarından,
Çaylar yaradılsın göz yaşlarından!
Mənim vicdanım da, qəlbimdə qandır,
Dünya qan üstündə bir xanimandır!
S.Vurğun [6]

“S.Vurğun Qacar surətini yaratdığı zaman Ə.Haqverdiyevin “Ağa Məhəmməd şah Qacar” pyesindən faydalanmışdır. Hətta “Vaqif” də Qacarın dediyi elə sətirlər vardır ki, elə bil “Ağa Məhəmməd şah Qacar”dakı bəzi monoloqlar məhz bu təsir altında nəzmə çəkilib” [3, s. 219]. Bəli, biz də bu fikirlə tam razıyıq. Ə.Haqverdiyevin Qacarının monoloqlarını, fikirlərini S.Vurğunun Qacarında da eyni mahiyyət kəsb etməsini görürük. Məsələn, “Gərək bir divan eləyəm ki, Əmir Teymurun sümükləri Səmərqənddə günbüşə gələ! Gərək Bağrıqan dağının sinəsindən Ələman sədası-fələkə dürəklənə! Gərək bir divan eləyəm ki, Hüccac ibni Yusif başını qəbirdən qovzayıb afərin desin! Of!” [1, s.196]

“Başıma ildırım töksə də fələk
Qanlı qılıncımla hökm edəm gərək
Sonsuz dənizlərə, sonsuz çöllərə!
Qoy qanla sulansın hər sussuz dərə!

Qoy qana boyansın güllər, çiçəklər,
Yalnız qan qoxusun əsən küləklər!"
[6, s.68]

Hər iki əsərdə Qacar Qarabağda öldürülür. Ə.Haqverdiyevdə yatağında, S.Vurğunda isə döyüşdə, Misri qılıncla. "Əgər Qacar tarixi bir fakt kimi Şuşada öldürülməsəydi də S.Vurğun onu mütləq Azərbaycanda, həm də Eldar tərəfindən Misri qılıncla həlak edəcəkdi"[3, s.222]. Bu da təsadüfi deyil. Hər iki əsər xalqın zülmə qarşı azadlıq mübarizəsini əks etdirir. Bu mənada hər ikisi müasirliyi qoruyub saxlayır. Qacarın simasında işğalçı xarakterli, müharibələrin bəşəriyyətə gətirdiyi faciələr, dağıntılar, zülmlər, mədəniyyətə vurulan ziyanlar pislənir.

Qacar tək özündən əvvəlki cahangirləri, eləcə də öz dövrünün qəsbkarlarını deyil, XX-XXI əsrin, bu günün müasir görünüşlü, müasir silahlarla silahlanan cəlladları öz mənində ehtiva edən obrazdır.

Bütün bunlarla yanaşı zülmə barışmaz, tabe olmayan, mübariz, qalib xalqın iradəsini təmsil edən mübarizələri, onun önündə gedən qəhrəmanlar – koroğlular, elxanlar, eldarlar, qəhrəmanlıq rəmzi olan Koroğlu yadigarı – Misri qılınc və digər qəhrəmanlar tarixi mövzularda yazılan əsərlərdə önə gətirilir. Vətən müdafiəsində gənclərə örnək missiyasını daşıyaraq mənəvi əxlaqi dəyərlər aşılayır. Necə ki, tarixi proseslərdə əhəmiyyətli olub. Bu ədəbiyyatımızın ənənəsidir. Milli mənəvi əxlaqi dəyərlər yazılan hər bir əsərin əsas ideyasıdır... Bu əsərlər və onların müəllifləri ölməzdir! Əbədidir!

Ədəbiyyat

1. Ə.Haqverdiyev Seçilmiş əsərlər. 2 cilddə I cild, Bakı, "Lider", 2005
2. M.Arif Seçilmiş əsərləri. Bakı, "Lider", 2005, c.II, 375 s.
3. A.Zeynallı S.Vurğun sənəti. Bakı, "Elm", 1989, 240 s.
4. Azərbaycan ədəbiyyatı tarixi. Az. SSR EA, Bakı, 1960
5. Azərbaycan sovet ədəbiyyatı tarixi. Az. SSR EA, Bakı, 1967
6. S.Vurğun Seçilmiş əsərləri. – 5 cilddə, IV cild Bakı, "Şərq-Qərb", 2005
7. B.Vahabzadə Səməd Vurğun. Bakı, Gənclik, 1956